**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ARARAT (ERMƏNİSTAN) RESPUBLİKASININ AZƏRBAYCAN XALQINA QARŞI SOYQIRIMI VƏ ETNİK TƏMİZLƏMƏ SİYASƏTİ

İxtisas: 5507.01 – Beynəlxalq münasibətlər tarixi

Elm sahəsi: Tarix

İddiaçı: **Nigar İmran qızı Camalova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitunun "Ümumi tarix" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** AMEA-nın həqiqi üzvü,
tarix elmləri doktoru, professor
**Yaqub Mikayıl oğlu Mahmudov**

**Rəsmi opponentlər:** AMEA-nın müxbir üzvü,
tarix elmləri doktoru, professor
**Hacıfəxrəddin Yəhya oğlu Səfərli**

tarix elmləri doktoru, dosent
**Aida Rəhim qızı Bağırova**

tarix elmləri doktoru, dosent
**Vasif Vaqif oğlu Qafarov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən BED 1.30/1 birdəfəlik Dissertasiya şurası

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor
**Kərim Kərəm oğlu Şükürov**

_______________
(imza)

Dissertasiya şurasının elmi katibi: tarix elmləri doktoru, dosent
**İlqar Vahid oğlu Niftəliyev**

_______________
(imza)

Elmi seminarın sədri: tarix elmləri doktoru, professor
**İsmayıl Məhərrəm oğlu Musa**

_______________
(imza)

# I. DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan tarixinin ən aktual problemlərindən biri Azərbaycan xalqına qarşı erməni hakim dairələrinin mərhələli və planlanlı şəkildə həyata keçirdiyi soyqırımı və etnik təmizləmə siyasətidir. Bu siyasətin ideya-siyasi köklərinin araşdırılması tarixdən düzgün nəticə çıxarılmasına kömək edə bilər və bəzi dövlətlərin (Fransa, Ermənistan) Azərbaycan əleyhinə səsləndirdikləri fikirlərin tarixi tutarsızlığını da əyani şəkildə ortaya qoymuş və keçmişdəki hadisələrlə hazırki dövr arasında müqayisələr aparmağa imkan vermiş olar. Azərbaycanın qələbəsi ilə yekunlaşan 44 günlük (27 sentyabr – 10 noyabr, 2020) Vətən müharibəsi zamanı Azərbaycanın yaşayış məntəqələrinə (Gəncə, Bərdə, Tərtər və s.) ballistik raketlərlə etdiyi terror hücumları və nəticədə hərbi və mülki əhalinin ölümünə səbəb olması Ermənistan Respublikasının 1918-ci ildən həyata keçirdiyi soyqırımı və etnik təmizləmə siyasətinin davamı idi. Ermənistanın Azərbaycanla sülh müqaviləsinin imzalanma prosesinə əngəl törətməsi, daxildə revanşist meyllərin mövcudluğu gələcəkdə soyqırımı siyasətinin davam etdirmək təhlükəsinin qaldığını göstərir. Yuxarıda göstərilən səbəblərdən məsələnin hər zaman gündəmdə saxlamaq ehtiyacının olması soyqırımı və etnik təmizləmə probleminin yeni sənədlərin cəlb edilməsi ilə daim araşdırılmasını aktual edir.

Problemin xarici ölkə arxivlərinin sənədlərini cəlb etməklə tədqiqi ermənilərin Azərbaycan haqqında həqiqəti əks etdirməyən və ölkəni nüfuzdan salmağa yönələn bəyanatlarına qarşı bu gün aparılan və gələcəkdə də davam etdiriləcək informasiya müharibəsinin effektivliyinə kömək etmək baxımından da aktualdır. Azərbaycan Respublikasının prezidenti İlham Əliyev informasiya müharibəsinin davam etdiyini və onun daimi olacağını vurğulamışdı.[1]

2018-ci ilin 18 yanvarında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin azərbaycanlıların soyqırımının 100 illiyi ilə

---

[1] İlham Əliyev Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda iştirak edib: [Elektron resurs] / – Bakı şəhəri, 02 fevral, 2022. URL: https://president.az/az/articles/view/55348

əlaqədar imzaladığı sərəncam[2] müasir dövrümüzdə mövzunun Azərbaycan tarixi və dövləti üçün son dərəcə aktual olduğunu bir daha sübut edir. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra vətən tarixşünaslığında kifayət qədər tədqiqata cəlb edilmiş soyqırımı, etnik təmizləmə probleminə təkrar müraciət olunmasının səbəbi daim aktual olan bu məsələdə Azərbaycanın mövqeyinin elmi əsasının olması tezisini daha da gücləndirməkdir.

Dissertasiyada qaldırılan problemə dair elmi-tədqiqat materialları aid olduğu dövrə və məkana uyğun müxtəliflik göstərir. Bu müxtəlifliyə əsasən tədqiqata cəlb edilən mənbə və tarixşünaslığı 3 qismə bölmək olar: 1918-1920-ci illər yazılı mənbələri; Müstəqilliyin bərpasından (1991) sonrakı dövr Azərbaycan tarixşünaslığı; Xarici tarixşünaslıq.

1918-1920-ci illərdə əsasən faktların toplanması və çoxtərəfli siyasi əlaqələr nəticəsində meydana gələn arxiv sənədləri ilkin yazılı qaynaq kimi tədqiqata cəlb edilmişdir. Ararat (Ermənistan) Respublikasının Azərbaycan əhalisinə qarşı həyata keçirdiyi soyqırımına dair faktlar ilk dəfə AXC dövründə Fövqəladə Təhqiqat Komissiyasının sənədlərində qeydə alınmışdır. Dissertasiyanı yazarkən qarşıya qoyulmuş məqsədə çatmaq üçün həm ölkə daxilində, həm də xarici ölkələrin (Almaniya, Rusiya, İngiltərə, Türkiyə, Gürcüstan, Ermənistan) nəşr edilmiş və nəşr edilməmiş arxiv materiallarından geniş şəkildə istifadə edilmişdir.

Azərbaycan arxivlərindəki sənədlərdə[3] əsasən AXC hökumətinin, parlamentinin, siyasi nümayəndələrinin, yerli əhalinin,

---

[2] 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti: [Elektron resurs] / – Bakı şəhəri, 18 yanvar, 2018. URL: https://president.az/articles/26762

[3] Azərbaycan Respublikası Dövlət Arxivi (fond: 894, 897, 970); Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi (fond: 277); Azərbaycan Xalq Cumhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar): [2 cilddə] / – Bakı, c. 1. – 1998; Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti. Sənədlər məcmuəsi. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi / Red. hey. sədri E.M.Məmmədyarov – Bakı, 2009; Azərbaycan xalqına qarşı 1918-ci il Mart soyqırımı. Sənədlər toplusu. İrəvan Quberniyasında soyqırımı (1918-1920-ci illər): [3 cilddə] / Red. hey. sədri Y.M.Mahmudov, tərt. ed.

ictimai təşkilatların və xarici dövlətlərin məktubları, teleqramları və digər yazıları saxlanılır. Onların əksəriyyəti rus, az qismi ingilis dilində və şifrələnmiş şəkildə saxlanılmışdır. Bu sənədlərin təhlili erməni hakim dairələrinin azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımı və etnik təmizləmə siyasətinin nəticələrini, AXC hökumətinin bu siyasətə qarşı fəaliyyətini təhlil etməyə imkan vermişdir.

Almaniya arxivində[4] isə əsasən Osmanlı dövləti və Rusiya ilə Cənubi Qafqaza dair məktublaşmaların nüsxələri saxlanılır. Bu nüsxələrdəki məlumatların təhlili Almaniyanın müttəfiqi Osmanlı dövləti ilə Cənubi Qafqazda siyasi-sosial vəziyyətə dair məsləhətləşmələr apardığını, erməni dövlətinin yaradılması məsələsində yumuşaq mövqeyinin olmasını göstərir.

İngilisdilli yazılı mənbələrdə[5] əsasən Cənubi Qafqazda siyasi-sosial vəziyyətə dair raportlar, Cənubi Qafqaz regionundakı siyasi hökumətlərlə yazışmalar, razılaşmalar saxlanılır. Bu mənbələrin təhlilindən aydın olur ki, Cənubi Qafqazda mövcud olan ingilis,

---

İ.V.Niftəliyev. Bakı, c. 2 (2-ci kitab). – 2011; Azərbaycan Paris sülh konfransında (1919-1920) / Tərt. ed. V.M. Quliyev – Bakı, 2008; Nəriman Nərimanov. Məktublar və Qarabağ məsələsinə dair sənədlər (təkmilləşdirilmiş yeni nəşri) / Elmi red. R.Mehdiyev, tərt. ed. T.Əhmədov. – Bakı, 2016; Zaqafqaziya Seyminin Müsəlman fraksiyasının və Azərbaycan Milli Şurası iclaslarının protokolları.1918-ci il / Baş red. A.Ə.Paşayev. – Bakı, 2006.

[4] Almaniya Federativ Respublikası Xarici İşlər Nazirliyinin Siyasi Arxivi (PAAA) (fond: R11045, R11057, R11060, R11064); Azərbaycan tarixi arxiv sənədlərində (1918-1919). Almaniya Federativ Respublikasının Xarici İşlər Nazirliyinin Siyasi Arxivi: [2 cilddə] / Red. hey. sədri Y.M.Mahmudov. – Bakı, c. 2. – 2014.

[5] Azərbaycan Xalq Cümhuriyyəti. Böyük Britaniyanın arxiv sənədləri / elmi red. Y.M.Mahmudov, tərt. ed. N.Ə.Maksvell – Bakı, 2008; Документы Британского национального архива по истории Южного Кавказа 1918-1920 годов / Под науч. ред. Я.М.Махмудова, сост-ль Н.А.Максвелл. – Баку, т. 1, ч. 1, 2. – 2020; Armenia in documents of the U.S. Department of State 1917-1920 / Complied and translated by G.G.Makhmourian, editor A.V.Gambaryan. – Yerevan: – 2017; Viscount, B. The treatment of Armenians in the Ottoman Empire 1915-16: [Electronic resource] / Armenian Genocide Resource Center. – London, 1916. URL: http://armenians-1915.blogspot.com/2005/07/120-british-blue-book-james-bryce.html.

amerikan, italyan missiyaları əsasən əvvəlcə ermənipərəst və ya neytral mövqe nümayiş etdirsələr də, sonradan AXC hakimiyyətinin arqumentlərini haqlı hesab etmişdirlər. Sənədlərdə həmçinin yer adlarının türk mənşəli olması erməni dövlətinin qədim Azərbaycan torpaqları hesabına yaradılmasını bir daha təsdiqləmiş olur.

Türkiyə arxivlərində[6] azərbaycanlılara qarşı qırğınlara dair faktlar, Osmanlı dövlətinin Cənubi Qafqazda hərbi, siyasi fəaliyyətini müəyyənləşdirməyə imkan verən yazılı mənbələr saxlanılır.

Rusiya[7], Gürcüstan[8] və Ermənistan[9] arxivlərinin əks olunduğu sənəd toplularında əsasən Cənubi Qafqazda ümumi vəziyyətə dair məlumatlar, sazişlər, hökumət qərarları, protokollar və teleqramlar yer almışdır.

Azərbaycanın müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan xalqına qarşı soyqırım faktları ilə əlaqədar araşdırmalar başlamış, ilk vaxtlar tədqiqatlar[10] əsasən Bakıda törədilən 31 mart-2 aprel 1918-ci il soyqırımına həsr edilmiş, Azərbaycan Respublikası

---

[6] Azerbaycan Cumhuriyeti 1918-1920 (Osmanlı Arşiv Belgeleri) / neşre hazırlayanlar Q.E.Şükürov, V.V.Qafarov. – İstanbul, 2018; Osmanlı belgelerinde ermeniler (1915-1920) / proje yöneticisi İ. Binark. – Ankara, 1995; Kaçaznuni, O. (Ermenistan'ın İlk Başbakanı). Taşnak partisi'nin yapacağı bir şey yok (1923 Parti Konferansı'na Rapor) / O.Kaçaznuni. – İstanbul, 2005.

[7] Azərbaycan tarixi arxiv sənədlərində. Rusiya Dövlət Sosial-Siyasi Tarix Arxivinin sənədləri. 1917-1920-ci illər: [3 cilddə] / Elmi red. Y.M.Mahmudov, tərt. ed. İ.V.Niftəliyev. – Bakı, c.1. – 2010; Perinçek, M.B. Rus Devlet Arşivlerinden 100 Belgede Ermeni Meselesi / M.B.Perinçek. – İstanbul, 2007; Шукюров, К.К. Азербайджан в системе международных отношений: 1648-1991. Документы и материалы / К.К.Шукюров. –Баку, 2020.

[8] Документы и материалы по внешней политике Закавказья и Грузии: [Электронный ресурс] / Сайт Библиотеки Русской Революции и Гражданской Войны. – Тифлис, 1919. – URL: https://rev-lib.com/dokumenty-i-materialy-po-vneshnej-politike-zakavkazya-i-gruzii/

[9] Андраник Озанян (Документы и материалы) / Составители: А.О.Арутюнян и др. – Ереван, 1991; Нагорный Карабах в 1918-1923 гг. Сборник документов и материалов / Отв. ред. доктор исторический наук, проф. В.А.Микаелян. – Ереван, 1992; Барсегов, Ю.Г. Нагорный Карабах в международном праве и мировой политике. Документы и Коментарий: [в 2 томах]. Москва, т. 1. – 2008.

[10] Why Sumqayit? A situational analysis. By Ziya Bunyadov: [Electronic resource] / Official website of journal "Visions of Azerbaijan". – Baku, 2010. –

Prezidenti Heydər Əliyevin 1998-ci il martın 26-da "Azərbaycanlıların soyqırımı haqqında" fərmanından sonra elmi tədqiqatlar daha geniş vüsət almış, fundamental əsərlər, monoqrafiyalar nəşr olunmuşdur. Bu əsərlərin əksəriyyəti yerli və rus, bəzən də türk və ingilis qaynaqları əsasında araşdırılmışdır. Dissertasiyada ingilis, türk, alman mənbələrindən daha çox istifadə edilmişdir. Mövzunu tədqiq edərkən Azərbaycan, türk, rus və ingilis dillərində olan elmi əsərlər təhlil edilmişdir.

Müasir Azərbaycan tarixşünaslığında Azərbaycan xalqına qarşı erməni siyasi dairələri tərəfindən törədilmiş soyqırımı və etnik təmizləmə siyasətinə dair fundamental araşdırmalar aparılmışdır. Bu araşdırmaları ayrı-ayrı bölgələr (İrəvan, Naxçıvan, Qarabağ, Zəngəzur, Bakı) və bir neçə bölgə ümumilikdə olmaqla iki qrupa bölmək olar. Bölgələr üzrə soyqırımı məsələlərinin xüsusi araşdırıcıları V.Abışov, İ.Niftəliyev, H.Verdiyevanın, N.Mustafa, K.İsmayılov, N.Məmmədzadə, S.Rüstəmova-Tohidinin əsərlərində[11], soyqırımı məsələlərinə aid ümumiləşdirilmiş tədqiqatlarda[12]

---

URL: http://www.visions.az/en/news/37/692a5fa8/; İsgəndərov, A.C. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı 1918-1920 / A.C.İsgəndərov. – Bakı, 2006.

[11] Abışov V.Ş. Bakıda 1918-ci il Mart soyqırımı / V.Ş.Abışov. Bakı, 2014; Нифталиев, И.В. Геноцид азербайджанцев в Иреванской губернии (1918-1920) / И.В.Нифталиев. – Баку, 2014; Verdiyeva, H.Y. İrəvan məkanında Azərbaycanlılara qarşı etnik təmizləmə: tarixi və hüquqi aspektdə / H.Y.Verdiyeva, C.Ş.Əlizadə; – Bakı, 2020; Mustafa N.Y. İrəvan quberniyasında Azərbaycanlıların soyqırımı (1918-1920) / N.Mustafa. – Bakı, 2017; İsmayılov, K.N. Zəngəzurda Azərbaycan xalqına qarşı soyqırımı (1918-1920) / K.N.İsmayılov. – Bakı, 2014; İsmayılov, K.N. Azərbaycanın Naxçıvan bölgəsi regional hərbi-siyasi proseslərdə (1917-1920) / K.N.İsmayılov. – Bakı, 2019; Мамедзаде, Н.Н. Геноцид азербайджанцев в Карабахском регионе Азербайджана (1918-1920) / Н.Н.Мамедзаде. – Баку, 2014; Rüstəmova-Tohidi, S.A. 1918. Azərbaycan qırğınları şəkil və sənədlərdə / S.A.Rüstəmova-Tohidi. – Bakı: – 2013; Рустамова-Тогиди, С.А. Март 1918 г. Баку. Азербайджанские погромы в документах / С.А. Рустамова-Тогиди. – Баку, 2009.

[12] Paşayev, A.Ə. XIX-XX əsrlərdə ermənilərin azərbaycanlılara qarşı ərazi iddiaları, soyqırımları və deportasiyaları / A.Ə.Paşayev. – Bakı, 2011; Qasımlı, M.C. "Erməni məsələsi"ndən "erməni soyqırımı"na: gerçək tarix axtarışında

(A.Paşayev, M.Qasımlı, İ.Hacıyev və s.) erməni siyasi dairələrinin Azərbaycan xalqına qarşı həyata keçirdiyi soyqırımı və etnik təmizləmə, AXC ərazisinin hərbi təcavüzə, işğala məruz qalması faktları çoxsaylı ilkin yazılı mənbələrlə sübut edilmiş, mühüm statistikalar və ümumiləşdirmələr aparılmışdır.

Ermənistanın azərbaycanlılara qarşı soyqırımı və etnik təmizləmə siyasətinə dair fundamental əsərlərlə yanaşı daxilində problemə dair fəsilləri və ya məlumatları olan elmi-tədqiqat işləri[13] də nəzərdən keçirilmişdir. Bu əsərlərin fəsillərində AXC-nin xarici siyasətində soyqırımı məsələləri, Ermənistanla münasibətləri, Azərbaycan torpaqları uğrunda gedən dövlətlərarası mübarizə və onların nəticələri, xarici dövlətlərin özünəməxsus siyasəti və bu siyasət həyata keçirilərkən ermənilərin oynadıqları mənfi rol barədə tədqiqatlar öz əksini tapmışdır. Həmin araşdırmalardan əsasən dissertasiyada qoyulan məsələlərin izahını verərkən beynəlxalq münasibətlər kontekstində dünyada gedən proseslərlə analogiyalar aparmaq üçün istifadə edilmişdir.

---

(1724-1920) / M.C.Qasımlı. – Bakı, 2014; Hacıyev, İ.M. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri / İ.M.Hacıyev. – Naxçıvan, 2012; Bayramov İ. Qərbi Azərbaycan: Tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti / İ.Bayramov. – Bakı, 2012; Историческая география Западного Азербайджана / Сост-ль. Асадов С., Науч. ред. Будагов Б. – Баку: – 1998; Халилов, А.Х. Геноцид против мусульманского населения Закавказья в 1917 - 1920 гг. в исторических источниках / А.Х.Халилов. – Баку, 2000 və s.

[13] Atnur, İ.E. Osmanlı idarəçiliyindən Sovet idarəçiliyinə qədər Naxçıvan (1918-1921) / İ.E.Atnur. – Naxçıvan, 2013; Cəfərli, E.Y. Naxçıvanda erməni-azərbaycan münaqişəsi / E.Y.Cəfərli. – Bakı, 2009; Hacıyev, İ.M. Böyük güclərin Azərbaycanla bağlı geosiyasi maraqlarında Naxçıvanın yeri / İ.M.Hacıyev, E.A.Şıxəliyev, E.Y.Cəfərli, M.S.Şabanov; – Bakı, 2017; Qasımov, M.C. Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər): [3 cilddə] / M.C.Qasımov. – Bakı, c. 2. – 2001; Musayev, İ.M. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər) / İ.M.Musayev. – Bakı, 1998; Nəsibzadə, N.L. Azərbaycanın xarici siyasəti (1918-1920) / N.L.Nəsibzadə. – Bakı: – 1996; Şıxəliyev, E.A. İngiltərənin geosiyasi maraqlarında "erməni məsələsi"nin yeri və Azərbaycana təsiri (1917-1920) / E.A.Şıxəliyev. – Naxçıvan, 2016; Мустафа-заде, Р. Две Республики. Азербайджано-российские отношения в 1918-1922 гг / Р. Мустафа-заде. – Москва, 2006 və s.

İlk erməni dövlətinin yaradılması prosesini araşdırarkən erməni-türk münasibətləri, erməni siyasi dairələrinin fəaliyyəti məsələləri ilə bağlı Y.Mahmudovun, İ.Bağırovanın, G.Nəcəflinin tədqiqatlarına[14] müraciət edilmişdir. Bundan başqa İrəvanın ermənilərə güzəştə gedilməsi şərtləri, Osmanlı dövlətinin Azərbaycan siyasəti, Trabzon və Batum konfransları, Batum müqavilələri, Ermənistanla siyasi münasibətlər, Cənubi Qafqazda gedən beynəlxalq siyasi proseslərin, ingilis, rus, alman və türk hakim dairələrinin region ölkələrinə təsiri ilə əlaqədar məsələləri tədqiq edərkən Y.Mahmudovun, V.Qafarovun, İ.Musanın əsərləri[15] də təhlil edilmişdir. Bu tədqiqatlarda ümumiləşmiş fikir ondan ibarətdir ki, Cənubi Qafqazda erməni dövlətinin yaradılmasında xarici aktorların təsiri daha çox olmuşdur.

1918-1920-ci illərdə AXC, Gürcüstan və Ermənistanın maraqlarının toqquşduğu və azərbaycanlı əhalinin kompakt yaşadığı Qazax-Borçalı mahalı da Cənubi Qafqazda gedən hərbi-siyasi proseslərdən ziyan çəkmiş, əhalisi qırğına və etnik təmizləməyə məruz qalmışdı. Azərbaycan tarixşünaslığında bir çox hallarda bu ərazi ayrıca tədqiqat mövzusu olaraq araşdırmalara cəlb edilmişdir. Bu

---

[14] İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycana köçürülməsi / Elmi red. Y.M. Mahmudov. – Bakı, 2010; Mahmudov, Y.M. Ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsinin regional təhlükəsizlik üçün nəticələri / Y.M.Mahmudov, G.C.Nəcəfli – Bakı, 2020; Mahmudov, Y.M. Qarabağ: Real tarix, faktlar, sənədlər / Y.M.Mahmudov, K.K.Şükürov – Bakı, 2005; Багирова, И.С. Политические партии и организации Азербайджана в начале XX века: 1900-1917 / И.С. Багирова. – Баку, 1997; Nəcəfli, G.C. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri / G.C. Nəcəfli. – Bakı, 2007.

[15] Mahmudov, Y.M. Azərbaycan xalqının İrəvan və ətrafındakı torpaqlara tarixi varislik hüququ bərpa olunmalıdır / Y.M.Mahmudov. – Bakı, 2015; Qafarov, V.V. Batum konfransında erməni dövlətinin yaradılması və İrəvanın ermənilərə verlməsi məsələsi / V.V.Qafarov. – Bakı, 2024; Qafarov, V.V. Azərbaycan Cümhuriyyəti tarixi. 1918-1920-ci illər. (Osmanlı arxiv sənədləri əsasında) / V.V. Qafarov, Q.E. Şükürov – Bakı, 2017; Musa, İ.M. Azerbaycan-Osmanlı Siyasi-Askeri İlişkileri (1917-1918) // – Ankara, 2000. № 64 (240), – s. 509-522.

tədqiqatlarda[16] Qazax-Borçalı bölgəsində gedən müharibələr, ərazinin azərbaycanlı əhalisinin yaşadığı fəlakətlər araşdırılmışdır. Əsərlərin təhlili göstərir ki, Qazax-Borçalı ərazisi daha çox Gürcüstanla Ermənistan arasında müharibə meydanına çevrilmiş, AXC isə həmin ərazidəki azərbaycanlıların müraciəti əsasında etiraz notaları ilə bölgədəki təcavüzün və sosial diskriminasiyanın qarşısını almağa çalışmışdır.

AXC süqut etdikdən sonra Ermənistanın daha çox ərazi zəbt etmək məqsədilə azərbaycanlılara qarşı etnik təmizləməni davam etdirməsi məsələlərini, 1920-ci ilin may-noyabr aylarında gedən siyasi prosesləri araşdırarkən əsasən İ.Niftəliyevin, M.Qasımlının, C.Həsənlinin tədqiqatlarından[17] istifadə edilmişdir. Bu əsərlərdə Ermənistanın sovetləşməsinədək olan müddətdə etnik təmizləmənin nəticəsi olaraq Azərbaycan ərazilərinin – Zəngəzur, Qazax və Şərur-Dərələyəzin bir hissəsinin ermənilərə verilməsi prosesi, Qarabağ və Naxçıvan ətrafında gedən siyasi qarşıdurmalar ətraflı araşdırılmışdır.

AXC dövrünə aid digər tədqiqatlarda[18] da erməni hakim dairələri tərəfindən azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımı və etnik təmizləmə hərəkətlərinə dair məlumatlar mövcuddur.

---

[16] Məmmədli, Ş.B. Paralanmış Borçalı və ya ermənilər 1918-ci ildə Borçalının güney qismini işğal etmişlər / Ş.B.Məmmədli. – Bakı, 1995; Habibbayli, S.İ. Tarihten Günümüze Borçalı Bölgesinde Ermeni İddiaları Ve Bölgenin Türk (Azerbaycanlı) Ahalisi // – Ankara, 2020. № 67, – s. 115-136; Ибрагимли, Х. Дж. Азербаджанцы Грузии / Х. Дж.Ибрагимли. – Москва, 2006 və s.

[17] Нифталиев, И.В. Азербайджанская ССР в экспансионистких планах армян (20-е годы ХХ века) / И.В.Нифталиев. – Баку, 2009; Qasımlı, M.C. Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları: tarix – olduğu kimi (1920-1994-cü illər) / M.C.Qasımlı. – Bakı, 2016; Həsənli, C.P. Sovet dövründə Azərbaycanın xarici siyasəti (1920-1939) / C.P.Həsənli. – Bakı, 2012.

[18] Şükürov, K.K. Ermənistandakı Azərbaycan toponimlərinə dair dövlət siyasəti və nəticələri // – Türkiye: Akademik Tarih ve Düşünce Dergisi, – 2021. № 8 (2), – s. 747-768; Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin dövlətçilik fəaliyyətinin Tiflis dövrü / R.H.Rüstəmov, Ş.F.Rəhmanzadə, Ə.F.Məmmədov [və b.] – Bakı, 2018; Qafqazda ilk respublikalar (1918-1921) / Elmi redaktor İ.S.Bağırova. – Bakı, 2021 və s.

Problemi araşdırarkən son dövrlərin avtoreferat və dissertasiyaları da nəzərdən keçirilmişdir.[19] Bu tədqiqatlarda ermənilərin Cənubi Qafqazda dövlət yaratmaq fəaliyyəti, AXC dövründə qaçqınlar problemi, ermənilərin Sürməli bölgəsində həyata keçirdiyi soyqırımı, erməni siyasi dairələrinin Naxçıvan və İrəvan ərazisinə ərazi iddiaları, ingilislərin Cənubi Qafqaz siyasətinə dair araşdırmalar aparılmışdır.

Dissertasiyanın yazılmasında həmçinin ensiklopediyalardan və digər ümumiləşdirilmiş kitablardan da faydalanılmışdır.[20]

Dissertasiyada qaldırılan məsələnin aktuallığını nəzərə alaraq müasir dövrdə gedən proseslərlə 1918-1920-ci illərdə baş vermiş oxşar hadisələri müqayisə etmək məqsədilə dövrü mətbuat və internet resurslarından[21] istifadə edilmişdir. Müqayisələr nəticəsində hazırki şəraitdə Ermənistan-Azərbaycan münasibətlərində əhali və

---

[19] Cəfərova, Ş.Ş. Türkiyə və Azərbaycanın ortaq milli maraqları kontekstində "erməni məsələsi": t.ü.f.d. dis. avtoreferatı. / – Bakı, 2022; Nəcəfli, G.C. Çar Rusiyası və ermənilərin Azərbaycan torpaqlarında dövlət yaratmaq fəaliyyəti: t.e.d. dis. avtoreferatı. / – Bakı, 2024; Xanməmmədova, N.Ə. Şimali Azərbaycanda qaçqınlara dair dövlət siyasəti (1914-1920-ci illər): / t.ü.f.d. dis. / – Bakı, 2024; Əliyeva, K.Q. İrəvan quberniyasının İqdır (Sürməli) bölgəsində ermənilərin türk-müsəlman əhalisinə qarşı törətdikləri soyqırımları (XX əsrin əvvəlləri): / t.ü.f.d. dis. / – Bakı, 2023; Əliyev, Z.Q. XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanın Naxçıvan və İrəvan bölgələrinə ermənilərin ərazi iddiaları: t.ü.f.d. dis. avtoreferatı. / – Bakı, 2022; Хаятова, Ф.А. Армянский фактор в Южнокафказской политике Великобритании в 1914-1919 годы: / дисс. доктора философии по истории. / – Баку, 2022.

[20] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: [2 clddə] / Red. hey. sədri Y.M.Mahmudov. – Bakı, c. 1. – 2004; Azərbaycan tarixi: [7 cilddə] / Məsul red. M.Ə.İsmayılov, N.Ə.Maksvell. – Bakı, c. 5. – 2001.

[21] İlham Əliyev Qazaxın dörd kəndini bir güllə atılmadan, qan tökülmədən Azərbaycana qaytardı [Elektron resurs] / – Bakı, 19 aprel 2024-cü il. – URL: https://apa.az/siyasi/ilham-eliyev-qazaxin-dord-kendini-bir-gulle-atilmadan-qan-tokulmeden-azerbaycana-qaytardi-tehlil-836746; İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib. [Elektron resurs] / – Bakı,12 yanvar 2022-ci il. – URL: https://president.az/az/articles/view/55243; Zəngilanda 2-ci Azərbaycan Milli Şəhərsalma Forumunda İlham Əliyevin nitqi [Elektron resurs] / – Bakı, 29 sentyabr 2023-cü il. – URL: https://president.az/az/articles/view/61532

ərazi-sərhəd məsələlərinin tədqiq edilən xronoloji dövrlə hadisə baxımından oxşar, lakin nəticə baxımından fərqli (etnik təmizləmə nəticəsində qaçqın düşmüş Azərbaycanlı əhalinin bir qismi öz yerlərinə (Qarabağa) qayıda bilir və sülhün şərtləri ərazi bütövlüyü çərçivəsində Azərbaycanın maraqlarına uyğun razılaşdırılır) olduğu müəyyən edilmişdir.

Xarici tarixşünaslıqda soyqırımı problemi ilə bağlı məlumatlara ən çox erməni tarixçilərinin əsərlərində rast gəlinir. Dissertasiyada erməni müəlliflərinin rus və ingilis dillərində olan elmi-tədqiqat işlərinə müraciət edilmiş, onların qeyd edilən məsələlərə münasibəti araşdırılmış, təhlil edilmişdir. Bu əsərlərdə əsasən Osmanlı dövləti tərəfindən ruslarla əlaqəyə girərək dövlətə xəyanətdə ittiham olunan Şərqi Anadoluda yaşamış ermənilərin soyqırıma məruz qaldığı, Qara dənizdən Xəzər dənizinə, Kür çayından Mesopatamiyayadək olan ərazilərin Erməni dağları və yaylası adlandıraraq ermənilərin tarixi vətəni olması, Cənubi Qafqazda yaradılan erməni dövlətinin məcburiyyətdən və Almaniya və Osmanlı dövlətinin təkidi ilə qurulduğu[22], Qarabağda guya ermənilərin türklər tərəfindən soyqırıma məruz qaldığı bildirilir, ermənilərin iddia etdikləri Azərbaycan ərazilərinin beynəlxalq statusu məsələsini əsas gətirərək bu əraziləri Azərbaycana verməməyə çalışılır, türkləri "erməni məsələsi"ni erməni xalqını məhv etməklə həllinə çalışmaqda günahlandırırdı[23] (Ermənistan Respublikası özlərinə sərf etməyəndə beynəlxalq statusu da heçə sayaraq 1919-cu il yan-

[22] Асоян, Т.М. Территориальные проблемы Республики Армении и Британская политика (1918-1920 гг.): / Дисс. ученой степени кандидата исторических наук. / – Москва, 2005; Петросян, Г. Отношения Республики Армения с Россией (1918-1920 гг.) / Г. Петросян. – Ереван, 2012; Hovannisian, R.G. The Republic of Armenia: The first year, 1918-1919: [3 Volumes] / R.G.Hovannisian. – London, V. 1. – 1971 və s.

[23] Барсегов, Ю.Г. Нагорный Карабах в международном праве и мировой политике. Коментарии к документам: [в 2 томах]. Москва, т. 2. – 2009; Virabyan, V.H. Armenian-Azerbaijani territorial conflict and the Karabakh issue in the context of the activities of the military and political representation of Great Britain in the Republic of Armenia and Transcaucasia in 1918-1920 // – Yerevan: Fundamental Armenology, – 2022. № 1 (15), – p. 39-71 və s.

varın 21-də Zəngəzur və Qarabağda idarəçilik haqqında qərar qəbul etmişdilər). Erməni müəlliflərindən olan S.Y.Akopyan Cənubi Qafqazdakı etnik münaqişələri soyqırım xarakterli qırğınlar adlandırır, rusları ermənilərin təhlükəsizliyinin təminatı hesab edir, Gənc Türklərin dövləti möhkəmləndirmək üçün ermənilərə, yunanlılara və digər düşmənlərə qarşı həyata keçirdiyi hərbi əməliyyatları Osmanlı dövlətini qeyri-türk elementlərindən təmizləmək ideologiyası adlandırır, Osmanlı dövlətinin Cənubi Qafqazdakı hərbi əməliyyatlarını da ermənilərə qarşı soyqırım kimi qiymətləndirirdi. [24] Ümumiyyətlə erməni tarixçiləri Osmanlı dövlətinin 1915-1923-cü ildə güclü Avropa dövlətləri ilə münasibətdə dövləti qoruyub saxlamaq uğrunda mübarizəsini ermənilərin soyqırımı kimi qələmə verərək Ermənisid adlandırırlar.

Dissertasiyada tədqiq edilən məsələlər Türkiyə tarixşünaslığında da ətraflı araşdırılmışdır.[25] Bu tədqiqatlarda daha çox Şərqi Anadoluda 1915-ci il hadisələri, erməni üsyanları, “erməni məsələsi”nin tarixi, ermənilərin köçürülməsi məsələsi, ermənilərin ərazi iddiaları araşdırılmış, Cənubi Qafqazda 1918-1920-ci illərdə ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən qırğınlar məsələsinə də toxunulmuşdur. Əsərlərdə həmçinin ermənilərin soyqırımı iddiaları tutarlı faktlarla təkzib edilmiş, ermənilərə qarşı soyqırımın olmadığı sübuta yetirilmişdir.

Rusiya tarixşünaslığında Romanovlar sülaləsinin devrilməsindən sonra Cənubi Qafqazda baş verən siyasi proseslər araşdırılarkən burada yaşayan xalqlar arasındakı toqquşmalara, bölgəyə marağı olan xarici qüvvələrin fəaliyyətinə də qismən yer verilmişdir.[26]

---

[24] Акопян, С.Ю. Геноцид армян в период Первой мировой войны и его современные этнополитические и международно-правовые последствия / С.Ю. Акопян. – Ростов-на-Дону, 2006.

[25] Şahin, E. Trabzon və Batum konferansları ve antlaşmaları (1917-1918) / E. Şahin. – Ankara: – 2002; Ermeni sorunu. / hazırlayanlar U.Uzer, M.Cengiz. – Ankara: – 2002; Halaçoğlu, Y. Sürgünden soykırıma ermeni iddiaları / Y.Halaçoğlu. – İstanbul: – 2008; Sarınay, Y. Rusya’nın Türkiye Siyasetinde Ermeni Kartı (1878-1918) / Y.Sarınay. – Ankara, c. 1(2). – 2008 və s.

[26] Бахтурина, А.Ю. Окраины российской империи: государственное управление и национальная политика в годы Первой мировой войны

İngilis tarixşünaslığında Cənubi Qafqaza, Rusiyaya dair tədqiqatlarda türk-azərbaycanlılar və ermənilər arasındakı siyasi-sosial problemlər barədə məlumatlara da yer verilmişdir. C.Makkarti[27] və S.Vimsin[28] əsərlərində ermənilərin türk-müsəlmanlara qarşı terrorçuluq faktları işıqlandırılmış və ermənilərin bu qanunsuz fəaliyyəti pislənilmişdir.

Beləliklə, mövcud tarixşünaslığın təhlilindən aydın olur ki, soyqırımı və etnik təmizləmələrə dair bir çox məsələlər ayrı-ayrı dövrlər və ərazilər üzrə araşdırılsa da Ararat (Ermənistan) Respublikasının Azərbaycan xalqına qarşı soyqırımı və etnik təmizləmə siyasəti kompleks şəkildə beynəlxalq münasibətlər kontekstində ayrıca tədqiqat mövzusu olmamışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Ararat (Ermənistan) Respublikasının Azərbaycan xalqına qarşı törətdiyi soyqırımı və etnik təmizləmə siyasətidir. Tədqiqat işinin əsas predmetini 1918-1920-ci illərdə beynəlxalq münasibətlər fonunda Ermənistan Respublikasının Azərbaycan xalqına qarşı soyqırımı və etnik təmizləmə siyasətinin mahiyyətinin, forma və metodlarının, bu zaman yerli türk-müsəlman əhalinin üzləşdiyi faciələrin tarixi-sosial mənzərəsinin, bu siyasətə qarşı AXC hökumətinin fəaliyyətinin tədqiqi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Ararat (Ermənistan) Respublikasının Azərbaycan torpaqları hesabına yaradılmasının, ermənilərin Azərbaycan xalqına qarşı yürütdüyü soyqırımı və etnik təmizləmə siyasəti fonunda meydana çıxan problemlərin AXC-nin siyasətinə və ərazi bütövlüyünə təsirinin, Ermənistan Respublikasının xalqımıza və dövlətimizə qarşı bu gün də davam edən düş-

---

(1914-1917 гг.) / А.Ю.Бахтурина. – Москва, 2004; Кузнецов, О.Ю. История транснационального армянского терроризма в ХХ столетии: Историко-криминологическое исследование. Изд. 2-е. / О.Ю.Кузнецов. – Москва, 2015.

[27] McCarthy, J.A. Turks and Armenians. A Manual on the Armenian Question / J.A.McCarthy, C.McCarthy. – Washington, 1989.

[28] Weems, S.A. Armenia secrets of a “Cristian” terrorist state: [in 2 vol.] / S.A.Weems. – Dallas, vol. 1. – 2002.

mənçilik siyasətinin köklərinin və səbəblərinin beynəlxalq münasibətlər kontekstində araşdırılması tədqiqatın əsas məqsədidir. Bu məqsədə nail olmaq üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

- Cənubi Qafqazda Azərbaycan torpaqları hesabına Ararat (Ermənistan) Respublikasının yaradılmasının tarixi, səbəbləri və erməni dövlətinin meydana gəlməsinə təsir edən əsas xarici aktorların siyasi mövqelərinin aydınlaşdırılması;
- Ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi soyqırımın məqsədlərinin və həyata keçirilmə üsullarının müəyyənləşdirilməsi;
- Ararat (Ermənistan) Respublikasının İrəvan və ətrafında Azərbaycan xalqına qarşı həyata keçirdiyi soyqırımının səbəblərinin və nəticələrinin öyrənilməsi;
- Ararat (Ermənistan) Respublikasının AXC-yə hərbi təcavüzü gedişində həyata keçirilən etnik təmizləmənin tarixi, səbəbləri və nəticələrinin tədqiq edilməsi;
- Azərbaycanın sovetləşdirilməsindən sonra Ararat (Ermənistan) Respublikasının etnik təmizləmə siyasətinin mahiyyətinin və nəticələrinin araşdırılması;
- Ararat (Ermənistan) Respublikasının həyata keçirdiyi soyqırımı və etnik təmizləməyə qarşı AXC hökumətinin humanitar, hərbi, diplomatik fəaliyyətinin, onun nəticələrinin və beynəlxalq münasibətlərə təsirinin sistemləşdirilməsi;

**Tədqiqat metodları.** Tədqiqat işində qarşıya qoyulmuş məqsəd və vəzifələri araşdırarkən ideoqrafik, müqayisəli təhlil və sintez kimi ümumelmi metodlarla yanaşı tarixşünaslıq elminin retrospektiv, tarixi-sistemli metodları tətbiq edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqat işində müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakı kimi müəyyən edilmişdir:

- Cənubi Qafqazda erməni-daşnak qüvvələri tərəfindən azərbaycanlı əhalinin hüquq və mənafelərinin kobud şəkildə pozulması, xarici siyasi qüvvələrin (əsasən Rusiya, Almaniya, Osmanlı) təsiri nəticəsində Qərbi Azərbaycan torpaqları hesabına İrəvan və onun ətrafında Ararat (Ermənistan) Respublikasının yaradılması;

- Erməni siyasi dairələrinin yürütdüyü soyqırımı və etnik təmizləmə siyasətinin ekspansionist məqsədi, bu siyasətin həyata keçirilmə metodlarının sistematik və qeyri-insani strukturu;

- Ararat (Ermənistan) Respublikasının İrəvan və ətrafında (Qars, Sürməli, Yeni Bəyazid, Eçmiədzin) həyata keçirdiyi və azərbaycanlıların sayının kəskin azalması ilə nəticələnən soyqırımı və etnik təmizləmə siyasəti;

- Ermənistan Respublikasının Azərbaycanın tarixi torpaqlarına (Göyçə (şərq), Qazax, Naxçıvan, Zəngəzur, Qarabağ) hərbi hücumları, Göyçə, Qazax, Şərur-Dərələyəz və Zəngəzurda soyqırımı və etnik təmizləmə həyata keçirməsi;

- Azərbaycan sovetləşdikdən sonra Ararat (Ermənistan) Respublikasının davam etdirdiyi etnik təmizləmə siyasəti və nəticədə Qazax, Şərur-Dərələyəz və Zəngəzurun bir hissəsinin ermənilərə verilməsi;

- Ararat (Ermənistan) Respublikasının azərbaycanlılara qarşı soyqırım və etnik təmizləmə siyasətinə qarşı Azərbaycan hökumətinin gördüyü humanitar, hərbi, siyasi, diplomatik tədbirlər, Naxçıvan və Qarabağda etnik təmizləmənin qarşısının alınması, Qafqazda marağı olan böyük dövlətlərin (İngiltərə, Osmanlı, İtaliya, ABŞ) neytrallaşdırılması və Azərbaycanın lehinə siyasi vəziyyətin təşəkkül tapması.

**Tədqiqatın elmi yeniliyi.** Ararat (Ermənistan) Respublikasının 1918-1920-ci illərdə soyqırımı və etnik təmizləmə siyasəti ilk dəfə kompleks şəkildə beynəlxalq münasibətlər kontekstində tədqiq edilmişdir. Nəticədə:

- Ermənistan Respublilkasının soyqırımı və etnik təmizləmə siyasətinə, Azərbaycanı bütünlüklə ələ keçirmək planına dair yeni sənədlər təhlil edilmişdir;

- Aşkar edilmiş yeni arxiv materialları 1918-ci ildə Ararat (Ermənistan) Respublikasının Cənubi Qafqazda yaradılması zamanı Almaniyanın təhrikedici rolunu müəyyənləşdirməyə imkan vermişdir;

- Osmanlı dövləti Trabzon və Batum konfransı öncəsi və gedişində Azərbaycanda siyasi-ictimai vəziyyəti təhqiq edərək hərəkət etmişdir;

- Müşahidə edilmişdir ki, ingilis mənbələrində indiki Ermənistan ərazisindəki yer adları türk adları olaraq verilmişdir;
- Aşkar edilmişdir ki, AXC hökumətinin italyanlarla Ələt-Culfa dəmir yolu ilə əlaqədar danışıqları da Haskelin Azərbaycan torpaqları hesabına neytral zona yaratmaq planının baş tutmamasına təsir edən amillərdən olmuşdur;
- Problemin tədqiqi zamanı yerli və xarici mənbələr və mövcud elmi tədqiqatlar kompleks müqayisəli şəkildə öyrənilmiş, bu isə soyqırımı və etnik təmizləmə siyasəti nəticəsində bölgə əhalisinin etnik tərkibində baş verən dəyişiklikləri müşahidə etməyə imkan vermişdir: məlum olmuşdur ki, 1918-1920-ci illər arasında təxminən 500000 azərbaycanlı soyqırım və etnik təmizləməyə məruz qalmışdır;
- AXC hökumətinin Ararat (Ermənistan) Respublikası tərəfindən azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı və etnik təmizləmə siyasətinin qarşısını almaq istiqamətində gördüyü tədbirlər ilk dəfə sistemləşdirilmiş, bu zaman həmin tədbirlərin orijinal təsnifatı verilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəticələri 1918-1920-ci illərdə Ermənistanın azərbaycanlılara qarşı soyqırımı və etnik təmizləmə siyasəti, Azərbaycana hərbi təcavüzü, Azərbaycanın xarici siyasəti, İngiltərə, Almaniya və Osmanlı dövlətlərinin Cənubi Qafqaz siyasətinə həsr olunmuş tədqiqatlara dair elmi-nəzəri biliklərin təkmilləşdirilməsinə kömək edə bilər. Tədqiqatın elmi bazasının mövzuya dair dərslik və dərs vəsaitlərinin yazılmasında, soyqırım məsələlərinin araşdırılması və təbliği ilə bağlı dövlət və qeyri-dövlət orqanlarının və beynəlxalq təşkilatların fakt və materiallarla təmin olunmasında nəzəri əhəmiyyəti ola bilər.

Tədqiq edilən mövzu Ararat (Ermənistan) Respublikasının soyqırımı, etnik təmizləmə siyasətindən irəli gələn və bu gün də yürüdülən Ermənistan Respublikasının düşmənçilik meyllərinə qarşı Azərbaycan hökumətinin tarixi, mənəvi və hüquqi mübarizəsinə əhəmiyyətli töhfə verə bilər. Eləcə də gənclərin maariflənməsində və xarici ölkələrdə yaşayan azərbaycanlıların ermənilərin türklərə qarşı soyqırım və düşmənçilik hərəkətləri barədə həqiqətlərin yaşadıqları ərazilərin geniş ictimaiyyətinə çatdırılmasında praktik əhəmiyyəti ola bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatın nəticələri elmi jurnallarda (o cümlədən beynəlxalq indeksli 2), ölkə daxilində və xaricdə yerli və beynəlxalq elmi konfransın materiallarında (o cümlədən xaricdə 1) öz əksini tapmışdır (cəmi 15 məqalə).

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Ümumi tarix" şöbəsində yerinə yetirilmiş, müzakirəyə çıxarılmışdır.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiyanın ümumi həcmi (istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla) 285306 işarədir (titul səhifəsi 362 işarə, mündəricat 2057 işarə, giriş 29542 işarə, I fəsil 60803 işarə, II fəsil 124136 işarə, III fəsil 50585 işarə, nəticə 17285 işarə).

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya giriş, üç fəsil, 8 paraqraf, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısı və ixtisarların və şərti işarələrin siyahısından ibarətdir. Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı və elmi əhəmiyyəti əsaslandırılmış, problemin öyrənilmə səviyyəsi, mənbə bazası və tarixşünaslığı şərh edilmiş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmiş, müdafiəyə çıxarılan elmi müddəalar, tədqiqatın metodoloji əsası, elmi yeniliyi və praktik əhəmiyyəti, aprobasiyası və həcmi göstərilmişdir.

Dissertasiyanın **"Cənubi Qafqazda erməni dövlətinin yaradılması"** adlı birinci fəsli iki paraqrafdan ibarətdir. **"Ermənilərin Şərqi Anadoluda dövlət yaratmaq cəhdləri"** adlı paraqrafda ermənilərin Şərqi Anadoluda törətdiyi soyqırımı, Osmanlı dövlətinin 1915-ci il köçürmə siyasətinin erməni dövlətinin yaradılmasına təsiri məsələləri ətraflı tədqiq edilmişdir. Nəticədə bir daha təsdiq edilmişdir ki, qiyamçı və qatil ermənilərin Şərqi Anadoludan köçürülməsi qərarı (1915 may) Osmanlı dövlətinin öz ərazisini qorumağa yönəlmiş müdafiə tədbiri olub soyqırımı xarakteri daşımırdı.

Köçürülmə zamanı Osmanlı dövlətindən təxminən 350 min erməni əhalisi qaçaraq Cənubi Qafqaza gəldilər və əsasən İrəvan, Qars, Zəngəzur, Qarabağ bölgələrində yerləşdilər.[29]

"**Qərbi Azərbaycan ərazisində Ararat (Ermənistan) Respublikasının yaradılması**" adlı paraqraf Almaniya və Osmanlı dövlətinin "erməni məsələsi"nin həllində atdığı siyasi addımları, İrəvanın ermənilərə verilməsi, Ararat (Ermənistan) Respublikasının yaradılması məsələləri ətraflı araşdırılmışdır.

Batum danışıqları gedişində Almaniya Osmanlı dövlətinə tövsiyyə etdi ki, gələcək sülh naminə Ermənistan dövlətinin yaradılmasına razı olsun.[30] Almaniya Osmanlı dövlətinin xalqların dominantlığı (Türklər-Azərbaycanlılar və gürcülər) prinsipi ilə dövlətlərin yaradılması təklifinə qarşı çıxaraq etnik mövcudiyyət (yəni ermənilərin də Cənubi Qafqazda mövcudluğunun qəbul edilməsi) prinsipinin əsas götürülməsini tövsiyyə etdi. Osmanlı dövlətində yüksək vəzifələrdə (baş nazir və hərbi nazir) təmsil olunanlar erməni dövlətinin yaradılmasına qarşı çıxsa da müttəfiqi Almaniyanın tövsiyyələrini nəzərə alan, öz ordusunu riskə atmaq istəməyən (Sərdarabad və Baş-Aparanda erməni qüvvələrinin güclü müqaviməti) və bölgədəki sosial-siyasi vəziyyəti (erməni dəstələrinin müsəlmanları qırğına məruz qoyacağı ehtimalı) düzgün qiymətləndirən Osmanlı hökuməti erməni dövlətinin kiçik ərazidə yaradılmasına razı oldu.

Ölkənin digər ərazilərini və əhalisini erməni silahlı dəstələrindən qorumaq məqsədilə AXC hökuməti 1918-ci il mayın 29-da İrəvan və ətrafındakı 9,5 min $km^2$ ərazinin ermənilərə güzəştə gedilməsi ilə bağlı qərar verdi. Mayın 30-da isə Qərbi Azərbaycan torpaqlarında Ararat (Ermənistan) Respublikası yaradıldı.

---

[29] Документы Британского национального архива по истории Южного Кавказа 1918-1920 годов / Под науч. ред. Я.М.Махмудова, сост-ль Н.А.Максвелл. – Баку, т. 1, ч. – 2020, s.61

[30] Azerbaycan Cumhuriyeti 1918-1920 (Osmanlı Arşiv Belgeleri) / neşre hazırlayanlar Q.E.Şükürov, V.V.Qafarov. – İstanbul, 2018. – 708 s. s.125; Telegramm. Der K. Legationsrat an Ausw. Amt. Aus Lansner. (Konstantinopel: 11. Mai 1918) // Politisches Archiv des Auswärtigen Amts. Ubteilung A. C2335, R11045, Russland Nr. 97a, 23d 14, f.23d 15, – A20151

Dissertasiyanın **“Ararat (Ermənistan) Respublikasının soyqırımı və etnik təmizləmə siyasəti”** adlanan ikinci fəsli 4 paraqrafdan ibarətdir. **“Ermənilərin törətdiyi soyqırımı və etnik təmizləmə siyasətinin məqsədləri və həyata keçirilmə üsulları”** adlı paraqrafda ermənilərin soyqırımı və etnik təmizləmə siyasətini həyata keçirmə metodları, məqsədləri ətraflı araşdırılmış, ermənilərin sayı ilə bağlı ingilisdilli mənbələr[31] təhlil edilmişdir.

Qeyri-insani metod olan soyqırımı və etnik təmizləmə siyasəti Ermənistan Respublikasının yerli türk əhalini məhv edərək etnik cəhətdən “təmiz” ərazilər yaratmağı hədəfləyən, ekspansionist məqsədə xidmət edən bir tezis idi. Bu siyasət müxtəlif metodlarla - terror, dinc əhaliyə qarşı silahlı hücum, iqtisadi sıxışdırma - həyata keçirilirdi.

Statistik təhlillər göstərir ki, 1918-1920-ci illərdə təxminən 500000 azərbaycanlı erməni hakim dairələri tərəfindən törədilən qırğınların və etnik təmizləmənin qurbanı olmuşdur.[32]

Erməni hakim dairələrinin Azərbaycanın idarəçiliyində erməni etnosunun nümayəndələrinin iştirakını təmin edərək iddia etdikləri tarixi türk torpaqlarını ələ keçirmək planlarının olması ingilisdilli mənbələrlə bir daha təsdiq edilir.[33]

---

[31] Azərbaycan Xalq Cümhuriyyəti. Böyük Britaniyanın arxiv sənədləri / elmi red. Y.M.Mahmudov, tərt. ed. N.Ə.Maksvell – Bakı: Çaşıoğlu, – 2008. – 576 s. s.148; Документы Британского национального архива по истории Южного Кавказа 1918-1920 годов / Под науч. ред. Я.М.Махмудова, сост-ль Н.А.Максвелл. – Баку, т. 1, ч. 1. – 2020. s.129-130

[32] Verdiyeva, H.Y. İrəvan məkanında Azərbaycanlılara qarşı etnik təmizləmə: tarixi və hüquqi aspektdə / H.Y.Verdiyeva, C.Ş.Əlizadə; – Bakı, 2020, s.49-50; Qasımlı, M.C. “Erməni məsələsi”ndən “erməni soyqırımı”na: gerçək tarix axtarışında (1724-1920) / M.C.Qasımlı. – Bakı, 2014, s.427; Bayramov İ. Qərbi Azərbaycan: Tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti / İ.Bayramov. – Bakı, 2012, s.70-158; Историческая география Западного Азербайджана / Сост-ль. Асадов С., Науч. ред. Будагов Б. – Баку, 1998, s.64-242.

[33] Azərbaycan Xalq Cümhuriyyəti. Böyük Britaniyanın arxiv sənədləri / elmi red. Y.M.Mahmudov, tərt. ed. N.Ə.Maksvell – Bakı: Çaşıoğlu, – 2008. – 576 s. s.67-73; Документы Британского национального архива по истории

“**Ararat (Ermənistan) Respublikasının İrəvan və ətrafında azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımı”** adlı paraqrafda ermənilərin İrəvan, ətraf ərazilər və Qarsda törətdiyi soyqırımı araşdırılmışdır.

Erməni dövləti yaradıldıqdan sonra bağlanılmış müqavilələrə və razılaşmalara baxmayaraq soyqırımı və etnik təmizləmə siyasəti dövlət səviyyəsində davam etdirildi. İrəvan müsəlmanları dini və irqi ayrıseçkiliyə məruz qaldı. Ararat (Ermənistan) hökuməti İrəvan, Eçmiədzin, Yeni Bəyazid, Böyük Vedidə soyqırımı və etnik təmizləmə həyata keçirdi.

“**Ararat (Ermənistan) Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinə hərbi təcavüzü və etnik təmizləmə**” adlı paraqrafda Ermənistanın AXC-nin öz ərazisi hesab etdiyi tarixi Azərbaycan torpaqlarına hərbi təcavüzü gedişində törədilən soyqırımı və etnik təmizləmə siyasəti yeni mənbələr cəlb edilməklə ətraflı tədqiq edilmişdir.

Ermənistan Respublikası 1918-1920-ci illərdə iddia etdiyi Azərbaycan torpaqlarına (Naxçıvan, Zəngəzur, Qarabağ, Qazax, Basarkeçər) hücumlar təşkil etmiş, həmin ərazilərdə yaşayan yerli azərbaycanlıları qırğına məruz qoymuşdur. Ermənistanın hərbi təcavüzü nəticəsində: Bir müddət (1919-cu il iyun-iyul ayları) ingilislərin köməyilə Naxçıvanda erməni hakimiyyəti quruldu və bu zaman Naxçıvanın müsəlman kəndləri qırğınlara məruz qaldı; Bütün razılaşmalara (23 noyabr Tiflis, dekabr Bakı, yanvar-aprel 1920 Tiflis) baxmayaraq Ermənistan Zəngəzura hərbi təcavüzü davam etdirərək oranı işğal etdi və azərbaycanlı əhalini etnik təmizləməyə məruz qoydu; Ermənistan hökumətinin Qarabağa hərbi müdaxiləsi və Qarabağdakı erməniləri qızışdıraraq soyqırım törətməklə bölgəni ələ keçirmək cəhdi baş tutmadı. Qarabağda ermənilərin idarəçilik tələbini ingilislər etirazla qarşıladı və Azərbaycanın Qarabağda suveren hüququnu tanıdı; Ermənistan Qazax-Borçalı bölgəsini ələ keçirmək üçün Gürcüstanla apardığı müharibədə qa-

---

Южного Кавказа 1918-1920 годов / Под науч. ред. Я.М.Махмудова, сост-ль Н.А.Максвелл. – Баку, т. 1, ч. 1. – 2020, s.191

lib gəldi və tarixi Azərbaycan ərazisi bölündü: Loru-Pəmbək hissəsi Ermənistana, dağ Borçalısı Gürcüstana verildi. AXC bu ərazilərlə bağlı Gürcüstanla müqaviləsinin olması (1918 payız) səbəbindən hərbi müdaxilə edə bilmədi və etiraz notaları verməklə kifayətləndi; Ermənistanın Basarkeçərə hücumu yerli azərbaycanlı əhalinin ərazidən qovulması ilə nəticələndi.

**“Azərbaycanın sovetləşməsindən sonra Ararat (Ermənistan) hökumətinin etnik təmizləmə siyasəti”** adlı paraqrafda AXC süqut etdikdən sonra Ermənistanın ərazi iddialarının və etnik təmizləmə siyasətinin davam etməsi, AXC-yə məxsus Zəngəzur, Qazax, Vedibasar və Şərur-Dərələyəzin bir hissəsinin işğalı məsələləri araşdırılmışdır.

Azərbaycan sovetləşdirildikdən sonra Ermənistan dövləti soyqırımı və etnik təmizləmə siyasətini davam etdirdi. 1920-ci il dekabrın 2-də Sovet Rusiyası ilə Ermənistan arasında İrəvanda bağlanan müqavilə ilə Azərbaycanın tarixi torpaqları olan Zəngəzur qəzasının, Qazax qəzasının, Pəmbək və Vedibasarın bir hissəsi Ermənistan SSR-in (noyabrın 29-da yaradılmışdı) ərazisi kimi tanındı. Azərbaycanın tarixi ərazilərinin Ermənistana verilməsi soyqırım və etnik təmizləmə siyasətinin həyata keçirilməsi ilə əhalinin say tərkibinin süni və zorakı şəkildə dəyişdirilməsinin və bolşevik Rusiyasının Cənubi Qafqazı işğal planının nəticəsi idi.

“**Ararat (Ermənistan) Respublikasının soyqırımı və etnik təmizləmə siyasətinə qarşı Azərbaycan hökumətinin gördüyü tədbirlər”** adlı üçüncü fəsil iki paraqrafdan ibarətdir. **“Soyqırımı və etnik təmizləməyə qarşı görülən humanitar tədbirlər”** adlı paraqrafda Azərbaycan hökumətinin soyqırımların qarşısını almaq istiqamətində gördüyü humanitar tədbirlər ətraflı araşdırılmışdır.

Görülən tədbirlərin (Fövqəladə İstintaq Komissiyasının yaradılması, Zaqafqaziya Seymində, AXC Milli Şurasında və parlamentində əks-tədbir kimi qərarların, bəyanatların qəbul olunması, qaçqınlara humanitar yardımların edilməsi, xarici qüvvələrdən (Ermənistan, Osmanlı, ingilis, amerikan) qaçqınlara kömək istənməsi və s.) azərbaycan xalqı üçün müsbət nəticələri də oldu: Ermənista-

na Antanta tərəfində döyüşmələri üçün ordunun qurulması məqsədilə verilən pulun müsəlman kəndlərində qırğınların həyata keçirilməsinə xərcləməsindən xəbər tutan ingilislər pul ödəməkdən imtina etdilər; AXC hökuməti və ingilislərin təşəbbüsləri nəticəsində Ermənistan hökuməti Basar-Keçərdə yerli türk-müsəlman əhaliyə qarşı həyata keçirilən qırğınlarda ermənilərin əli olduğunu etiraf etdi və cinayətkarların cəzalandırılacağını vəd etdi; Amerika missiyası vasitəsilə ermənilərin hərbi təcavüzü nəticəsində bağlanan Naxçıvan, Şərur və Sürməliyə gedən yol humanitar məqsədlər üçün açıldı.

Azərbaycanın yerli əhalisi ictimai təşkilatlarda birləşərək və öz şəxsi təşəbbüsləri ilə soyqırımı və etnik təmizləmənin qarşısını almağa çalışdı: Xalqlar arasında dostluq yaradılmağa çalışıldı; qaçqınlara ərzaq və pul yardımları edildi.

Görülən tədbirlərə baxmayaraq AXC hökuməti İrəvan və Zəngəzur bölgəsində etnik təmizləmənin qarşısını ala bilmədi.

“**Soyqırımı və etnik təmizləmə əleyhinə hərbi və diplomatik tədbirlər”** adlı paraqrafda Ermənistanın soyqırımı və etnik təmizləmə siyasətinə qarşı AXC hökumətinin hərbi və diplomatik fəaliyyəti, onların nəticələri yeni ingilisdilli arxiv sənədləri daxil edilməklə işıqlandırılmışdır. Ermənistanın soyqırımı və etnik təmizləmə siyasəti eksponsionist xarakter daşıdığından AXC ərazisinə hərbi təcavüzü və ərazi iddiaları ilə müşayət olunurdu. Bu səbəbdən AXC hökumətinin gördüyü hərbi və diplomatik tədbirlər əsasən ərazi iddialarına qarşı yönəlmişdi. Görülən tədbirlərin AXC üçün müsbət nəticələri də oldu: Batum müqavilələrində Naxçıvan və Sürməli ərazilərinin Azərbaycanla razılaşdırılaraq Osmanlı dövlətinə birləşdirilməsi Ermənistanın ərazi iddialarının beynəlxalq müqavilələrdə tanınmadığını göstərdi; Azərbaycanın Ermənistandakı nümayəndəliyindən sərhəddəki hərbi və siyasi vəziyyət barədə məlumatların gəlməsi AXC hökumətinə hərbi təcavüzə qarşı müttəfiqlik əlaqələrinin və hərbi birləşmələrin təşkili, müdafiə tədbirlərinin görülməsi işini həyata keçirməyə kömək etdi; Yerli azərbaycanlı əhali ərazi iddialarına qarşı etiraz etməklə öz yurdlarını qorumağa çalışdılar və AXC hökuməti və Osmanlı zabitlərinin

də köməyilə Naxçıvan və Qarabağın işğalına imkan vermədilər; Ərazi məsələlərində Cənubi Qafqazdakı türk, ingilis, amerika və italiya nümayəndələri AXC hökumətinin lehinə mövqe nümayiş etdirdilər; Paris konfransında ermənilərin ərazi iddiaları qəbul edilmədi və sərhədlər məsələsi açıq saxlanılaraq Cənubi Qafqazın 3 dövlətinin öz ixtiyarına buraxıldı.

Dissertasiyanın **nəticə** hissəsində aparılan elmi araşdırmalara, əldə edilmiş elmi nəticələrə yekun vurulmuşdur. Həmin nəticələr aşağıdakılardır:

Erməni siyasi liderlərinin Şərqi Anadolunu ələ keçirərək dövlət yaratmaq planları Osmanlı dövlətinin siyasi tədbirləri nəticəsində baş tutmadı.

Trabzon və Batum danışıqlarından əvvəl Osmanlı dövləti regionda ictimai-siyasi vəziyyəti öyrənərək öz siyasətinin istiqamətini müəyyənləşdirdi.

Mürəkkəb siyasi-sosial proseslər gedişində Azərbaycan hökuməti İrəvan və ətrafındakı təxminən 10 min $km^2$ ərazini dövlət yaradılması üçün ermənilərə verdi.

Bakıdakı ermənilər bolşeviklərlə birləşərək Erməni Milli Şurasındakı gizli Daşnaksütun cəmiyyətininin mövqeyini möhkəmləndirirdilər. Bakıdakı Erməni Milli Şurasının məqsədi Bakı Sovetinin əli ilə tədricən erməniləri hakimiyyətə gətirərək Bakını ələ keçirmək, iddia etdikləri Azərbaycan torpaqlarının ilhaqını asanlaşdırmaq idi. Soyqırımı törədən erməni silahlı dəstələri Ermənistan dövlətinin mənafeyini müdafiə edirdi.

Osmanlı ordusunun Cənubi Qafqazda olub-olmaması soyqırımın şiddətinə də təsir göstərirdi. Belə ki, Osmanlı ordusu Cənubi Qafqazı tərk etdikdə Ermənistan soyqırımı və etnik təmizləməni daha da şiddətləndirirdi.

Dövrün ingilis, türk və alman mənbələrində AXC və Ermənistan ərazisində yer adları türk adları ilə göstərilmişdir.

Ermənistan hökumətinin həyata keçirdiyi soyqırımı və etnik təmizləmə siyasəti nəticəsində İrəvan və Yeni Bəyazid azərbaycanlılardan təmizləndi.

Ermənistan 1918-1920-ci illərdə iddia etdiyi Naxçıvan, Zəngəzur, Qarabağa, Qazaxa və Vedibasara hərbi müdaxilə etdi və yerli azərbaycanlı əhalinin qırğınına cəhd etdi. Naxçıvanda Türk zabitlərinin, yerli əhalinin və AXC hökumətinin səyi nəticəsində azərbaycanlıların tamamilə qırılmasının qarşısı alındı.

AXC hökuməti dəmir yolu ilə bağlı italyanlarla danışıqların sadəcə təmirlə əlaqədar olması haqqındakı bəyanatı Haskelin fikrini də Azərbaycanın xeyrinə yönəltdi. Nəticədə Haskel neytral zonaya daxil etdiyi Naxçıvan və Şərur-Dərələyəzi Azərbaycan ərazisi kimi tanıdı.

Ermənistan dövlətinin Zəngəzura hərbi müdaxiləsi yerli azərbaycanlı əhalinin qırğını və etnik təmizləməyə məruz qalması, qədim türk torpağı olan bölgənin (Qərbi Zəngəzurun) işğalı ilə nəticələndi.

Qarabağdakı münaqişələri Paris sülh konfransına çıxararaq erməniləri qırğına məruz qalmış kimi göstərən ermənilərin yalan təbliğatının doğurduğu xoşagəlməz təəssüratın qarşısını almaq məqsədilə yəhudi nümayəndələri AXC heyətinə Amerikaya nümayəndə heyəti göndərməyi təklif etdilər. Amerikaya nümayəndə göndərilmir, lakin Qafqaz üzrə amerika missiyasının ümumi sədri Loqen Azərbaycana lazımi köməyin göstəriləcəyini vəd etdi.

15 avqust 1919-cu il Qarabağla bağlı Azərbaycan hökuməti və Qarabağ Erməni Şurası arasında bağlanan müqavilənin şərtində göstərilən "çıxıb getməyə məcbur qalan azərbaycanlıların öz torpaqlarına maneəsiz qayıtmağa icazə verilməsi" şərti ermənilər tərəfindən etnik təmizləmə aparıldığının etirafı kimi qiymətləndirilə bilər.

Ararat (Ermənistan) Respublikasının Azərbaycan xalqına qarşı soyqırımı və etnik təmizləmə siyasəti və Sovet Rusiyasının Ermənistanı döyüşsüz ələ keçirmək niyyəti Zəngəzurun bir hissəsinin ermənilərə verilməsi ilə nəticələndi.

Azərbaycan hökuməti soyqırımı və etnik təmizləmənin qarşısını almaq üçün müxtəlif istiqamətlərdə fəaliyyət göstərmişdi: 1) Parlamentdə müzakirələr edilir, hökumət səviyyəsində qərarlar çıxarılırdı; 2) Səfirliklər və nümayəndəliklər vasitəsilə böyük dövlətlərin siyasətinə təsir edilirdi; 3) Soyqırımı və etnik təmizləmə

nəticəsində zərər çəkmiş əhali himayə edilirdi; 4) İctimai təşkilatlar və şuralar tərəfindən soyqırıma etiraz edilir və zərər görmüş əhaliyə kömək göstərilirdi; 5) Yerli əhalinin öz təşəbbüsü hesabına soyqırıma qarşı mübarizə aparılırdı.

Azərbaycan hökuməti ərazi iddiaları və hərbi təcavüzə qarşı 3 istiqamətdə diplomatik mübarizə aparmışdı: 1.Xarici ölkələrin Cənubi Qafqazdakı nümayəndələri ilə yazışmalar və görüşlər; 2. Ermənistan dövləti ilə ikitərəfli yazışmalar və görüşlər; 3. Beynəlxalq arenada mübarizə.

## Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı elmi məqalələrində əksini tapmışdır:

1. Ermənistan Respublikasının yaradılması və onun Azərbaycanlılara qarşı soyqırımı siyasəti // – Bakı: AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, Elmi Əsərlər, – 2014. № 48,49,50, – s. 418-423.
2. I Dünya Savaşı'nın sonlarına doğru Kafkasya'da Ermenistan Cumhuriyeti'nin oluşturulması // 100. Yılı Münasebetiyle I. Dünya Savaşı'nda Kafkas (Doğu) Cephesi Uluslararası Sempozyumu, – Erzurum: Atatürk Araştırma Merkezi Yayınları, – 25-27 Eylül, – 2015, – s.725-734
3. Qars regionunda soyqırımı // XX əsrdə türk-müsəlman xalqlarına qarşı soyqırımları: IV beynəlxalq elmi konfransı, – Lənkəran: AMEA A.A.Bakıxanov ad. Tarix İnstitutu, – 22-27 aprel, – 2017 – s. 526-530.
4. Birinci Dünya müharibəsi illərində ermənilərin Osmanlı imperiyası ərazisində dövlət yaratmaq cəhdləri // – Bakı: AMEA A.A.Bakıxanov ad. Tarix İnstitutu. Elmi Əsərlər, – 2017. №68, – s. 73-89
5. Ermənistan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinə hərbi təcavüzü və azərbaycanlılara qarşı soyqırımı siyasəti //

Azərbaycan Cümhuriyyəti – 100. Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyinə həsr olunur, – Bakı: "İçərişəhər" Dövlət tarix memarlıq qoruğu idarəsi, – 24 may, – 2018, – s.410-419

6. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin azərbaycanlıların soyqırımının qarşısını almaq üçün gördüyü tədbirlər // – Bakı: AMEA A.A.Bakıxanov ad. Tarix İnstitutu, Elmi əsərlər, – 2018. № 74, 75, 76, – s.119-123
7. Ermənistan Respublikasının qədim Azərbaycan torpağı Naxçıvana hərbi təcavüzü və onun nəticələri // Gənc tarixçi tədqiqatçıların "Elm günü"nə həsr olunmuş respublika konfransı, – Bakı: AMEA A.A.Bakıxanov ad. Tarix İnstitutu, – 2 aprel, – 2019, – s.41-42
8. Ararat (Ermənistan) Respublikasının Azərbaycanın Qarabağ bölgəsində soyqırımı və etnik təmizləmə siyasəti (1918-1920) // – Türkiye: Akademik Tarih ve Düşünce Dergisi, – 2020. – Cilt 7 (sayı: 1), – s.719-732
9. The impact of the foreign and internal policy of the Ottoman State in 1915 on the "Armenian question" // – Bakı: Sosial Elmlər jurnalı, – 2021. № 2, – s.48-54
10. Ermənistanın azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırım: Şuşa şəhəri üzrə // "Şuşa - 270: Dünya mədəniyyət mərkəzləri kontekstində" beynəlxalq elmi konfransın tezisləri, – Bakı: A.A.Bakıxanov adına Tarix İnstitutu, – 5 – 6 dekabr 2022-ci il, – 2023, – s. 80-85
11. 1918-1920-ci illərdə Ermənistan (Ararat) Respublikasının etnik təmizləmə siyasəti və AXC hökumətinin gördüyü tədbirlər // – Gəncə: AMEA Gəncə bölməsinin Xəbərlər Məcmuəsi (ictimai və humanitar elmlər seriyası), – 2023. №1(5), s. 74-84
12. Armenia's military aggression and ethnic cleansing policy against Zangezur (1918-1920) // Materials of the International Scientific Conference "History and Geography of Zangazur", – Bakı: Azərbaycan Elm Mərkəzi, – 19 May 2023-cü il, – 2023, – s. 147-150

13. Diplomatic activity of the Azerbaijani government against the territorial claims of the Republic of Armenia (1918-1920) // – Türkiye: Review of Armenian Studies, – 2023. Cilt 47, – s. 159-177
14. 23 noyabr 1919-cu il sazişi və Zəngəzur // "Qərbi Azərbaycanın tarixi və mədəni irsi" mövzusunda respublika elmi konfransının materialları, – Bakı: Füyuzat, – 20 oktyabr 2023-cü il, – 2023, – s. 130-137
15. Armenia's plans on the Nakhchivan territory and the countermeasures of the Azerbaijan government (1918-1920) // – Bakı: Azərbaycan tarixşünaslığı (Azerbaijan Historiography), – 2024. Cild 85, №2, – s. 29-45

Dissertasiyanın müdafiəsi "26" dekabr 2024-cü il tarixində saat "10⁰⁰" Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun nəzdində fəaliyyət göstərən BED 1.30/1 birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1073, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "19" noyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 16.11.2024
Kağızın formatı: A5
Həcm: 47256
Tiraj: 100

“Elm” nəşriyyatının
mətbəəsində çap olunmuşdur.